**Orxan Şəmsi oğlu MƏCNUNOV**
Qərbi Kaspi Universiteti
Email: orxanmacnun@gmail.com

# CİNSİ ORİYENTASİYANIN ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA ROLU VƏ ONUN PSİXİ SAĞLAMLIĞA TƏSİRİ.

**Xülasə**

Məqalədə homoseksual fərdlərin psixi sağlamlığına cinsi oriyentasiyanın necə təsir etməsi və şəxsiyyətin formalaşdırılmasının çətinliyi müzakirə olunur. Burada əsasən cəmiyyət tərəfindən qəbul edilmə və aidlik tələbatının ödənilməsi ilə bağlı problemlər gündəmə gəlir. Bunlar isə həyat keyfiyyətinin azalması,tənhalıq, sosial təcrid, sosial qorxu və bəzi hallarda sosial fobiyalara səbəb ola bilər.

**Açar sözlər:** cinsi oriyentasiya, homoseksuallıq, psixi sağlamlıq, social təcrid, təşviş, həyəcan, şəxsiyyətin özünü aktuallaşdırması.

**UOT:** 159.9
**DOİ:** https://doi.org/ 10.54414/ TMAG2820

**Giriş**

Homoseksual fərdlərin cəmiyyət tərəfindən qəbul edilmədiyi və qınaqla üzləşdiyi hallar tez tez müşahidə edilir. İnsan həm də sosial varlıq olduğu üçün onun bir şəxsiyyət kimi formalaşmasında cəmiyyətlə qarşılıqlı əlaqəsi və qarşılıqlı münasibətlərin hansı zəmində olması mühüm rol oynayır. Cəmiyyət tərəfindən təcrid edilən və özünü hər hansısa bir qrupa aid hiss etməyən insanlarda sosial tələbat ödənmədiyi üçün psixi sağlamlıqları ilə bağlı bir sıra problemlər görürük.

**Əsas hissə.**

Bu məsələni araşdırmazdan əvvəl homoseksuallığın yaranması ilə bağlı bəzi nəzəriyyələrə diqqət yetirmək lazımdır. Homoseksuallığın yaranması ilə bağlı bioloji fikirlər insan orqanizmi ilə bağlı eksperimental təcrübələrdə öz təsdiqini axtarırdı. Bioloji konsepsiyalara genetik, endokrinoloji, neyrofizioloji, neyroendokrin uşaqlıqdaxili konsepsiyalar aiddir. Bu konsepsiyaların hər biri orqanizmin funksionallığın nəzərə alır.

Homoseksuallığın yaranma səbəbini genetik olaraq əsaslandırmağa çalışan alimlər XX əsrin əvvəllərindən etibarən eksperimentləri əkizlər üzərində həyata keçirirdilər. Bu fikirlərə əsasən əkizlərdən birinin homoseksual olması halında digərinin də homoseksual olma ehtimalını araştırırdı. Bir vaxtlar elə düşünürdülər ki, Xq28 kişi homoseksuallığının genidir, lakin tıdqiqatlarda özünü təsdiq etmədi.

*Endokronoloji konsepsiya isə hormonlarla əlaqəli idi.*bu konsepsiya əsasə homoseksual kişilərlə heteroseksual kişilərin hormonal səviyyələri üzrə tədqiqat aparırdılar. Lakin homoseksuallığın yaranması ilə bağlı bu cür əlaqə tapılmadı(Посвянский, 1974).

Baş beyin strukturlarının qarşılıqlı əlaqəsi öyrənilən zaman homoseksuallığın da bu qarşılıqlı əlaqənin pozulması nəticəsində yarana biləcəyi iddiası irəli sürüldü. Bunu isə əsasən temporal lobun və hipotalamik hissələrinin zədələnməsi ilə əlaqələndirirdilər (Свядощ, 1974).

Homoseksuallığı insanın psixikası və onun xassələri ilə izah edən 1905-ci ildə Sigmund Freud olmuşdur. Onun fikirləri digər psixoanalitiklər tərəfindən genişləndirilərək inkişaf etdirilmişdir. Homoseksuallıq haqqında muasir psixoanalitiklərin də yanaşmaları mövcuddur.

Freud homoseksuallığı *seksual kənara çıxma* kimi ələ alırdı. Homoseksualları inversiya, homoseksualları isə invertasiya olunmuş adlandırırdı. Freud deyirdi ki, invertasiyaya məruz qal-

mış *kişilərin seksual meyli qadınlara yox, kişlərəi, qadınların seksual meyli isə kişilərə yox, qadınlara olur.* (Фрейд, 1993).

Freud homoseksuallığın yaranma səbəblərini izah edərkən homoseksualları üç kateqoriyaya ayırır.

a) tamamilə invertasiya olunmuşlar -seksual akt zamanı ikrah hissi yaranır və seksual aktı yerinə yetirə bilmir, yetirdikdə isə heç bir həzz hissi keçirməyənlər.

b) amfigen invertasiya olunmuşlar və ya psixoseksual hermafroditlər – həm öz cinsi həm də əks cinslə seksual akt edə bilənlər

c) təsadüfən invertasiya olunmuşlar - xarici təsirlər nəticəsində homoseksual təcrübə qazanmışlar, hansılarının ki, içində ilkin olaraq normal seksual obyekt əlçatan deyil və təqlid.

Homoseksuallığın anadan gəlmə olmayıb sonradan bir seçim və ya həyat şəraitinə görə formalaşdığını isə Joseph Nicolosi müdafiə edirdi.

Nicolosinin fikirləri də Freudun nəzəriyyəsinə əsaslanırdı. O yazırdı ki terapiya zamanı homoseksual kişilər ata ilə bağlı mənfi xarakterli münasibətlərə çox toxunurlar. (Fisher, 1996). Buna görə də homoseksuallığın yaranmasında ata ilə münasibətlər və ana tərəfindən qeyri adekvat qayğının göstərilməsi də rol oynaya bilər.

Nicolosi qadınlarda isə homoseksuallığın yaranmasında əsas kimi konfliktləri göstərirdi. Şüursuz olaraq qadınlar öz qadınlıqlarını və feminlik identikliyini inkar etməsi ilə şüuraltı səviyyəsindəqadın olmanın təhlükəli olduğunu qəbul edirlər. Yəni Nicolosi hesab edir ki, qadınlar homoseksual olaraq doğulmurlar, sonradan ətraf mühitdən həmçinin ailədən qazanırlar. Bu Carl Jung un anima və animusla bağlı fikirləriylə də oxşarlıq təşkil edirdi. O, müxtəlif dövrlərdə homoseksuallığın heteroseksuallıqla əvəz oluna biləcəyini düşünürdü (Fisher, 1996).

Homoseksuallığın necə yaranması və inkişaf etməsi haqqında müəyyən nəzəriyyələrə baxdığımıza görə indi isə homoseksuallıq insanın psixi sağlamlığına hansı təsirləri göstərir ona baxacağıq. Homoseksual insanların psixi sağlamlıqları haqqında araşdırmalar 1960-cı illərdə homoseksuallığın psixi pozuntu olması və ya norma olması haqqındakı müzakirələrdən başlanmışdır(Meyer , 2003). Baxmayaraq ki, bu müzakirələr homoseksuallığın bir diaqnoz kimi DSM-II də (Diagnostic and Statistical Manual of Mental Disorders, DSM) çıxarılması ilə yekunlaşdı.

Bundan sonra da bu sahədə araşdırmalar davam etdi. Xarici faktorlara nəzər saldıqda bu halı izah edə biləcək bir çox amilləri görə bilərik. Aile və cəmiyyət tərəfindən yox sayılma, qısnama, təcridə məruz buraxılan homoseksual fərdlərin belə psixi pozuntulardan əziyyət çəkməsi sürpriz deyildir. (NAMI, 2018) 1966 və 2005 ci illər arasında qeyri heteroseksual fərdlər ilə edilmiş araşdırmaları incələyən bir meta analizində qeyri heteroseksual fərdlərin depresiya və təşviş pozutularına məruz qalma risqinin heteroseksual fərdlərə görə ən az 1.5 dəfə çox olduğu ortaya qoyulmuştur. Yenə eyni meta analizinə görə qeyri heteroseksual fərdlərin alkol və ya maddə bağımlılığı 1.5 dəfə daha çox olduğu və qeyri heteroseksual fərdlərin özlərinə zərər verəcək davranışlarının heteroseksuel fərdlərə görə daha yüksək olduğu qənaətinə gəlinmişdir. Nəticələrin hər iki cinsiyyət üçün də oxşar olduğu müşahidı edilmişdir.(King, Semlyen, Tai, Killaspy, Osborn, Popelyuk, Nazareth, 2008).

Qeyri heteroseksual fərdlərin güvənlik, etibarlı təhsil haqqı, ailə və dostları ilə sosyal münasibətlər, sosyal bərabərlik və iş imkanları kimi mövzularda birçox çətinlik ilə qarşılaşdıqları müşahidə edilmiştir (Subhrajit, 2014). Yuxarıda da göstərildiyi kimi bütün bu faktorlar şəxsiyyətin formalaşmasına bir başa tısir edirlər(Veenhoven, 1996). 2015 ci ildə 245 LGBT fərdi ilə aparılan bir tədqiqatda ailə, dostlar və cəmiyyət tərəfindən qəbul görmənin və dəstəklənmənin LGBT fərdlərin üzərində olumlu bir təsiri olduğu aşkarlanmışdır(Snapp, Watson, Russel, Diaz, Ryan, 2015). 2012 ci ildə İspaniyada aparılan bir başqa tədqiqatda sosyal dəstək görən homoseksual fərdlərin həyat keyfiyyətlərinin daha yüksək olduğu və iştirakcıların cinsi kimliklərini qəbul etməsi ilə hıyat keyfiyyətinin düz mütənasib olduğu müşahidə edilmişdir (Dominguez-Fuentes, Hombrados-Mendieta, Garcia-Leiva, 2012). Avstraliya və İngiltərədə aparılan tədqiqatların nəticələri hesablandıqada qeyri heteroseksual fərdlər ilə heteroseksual fərdlərin həyat keyfiyyətini müəyyənləşdirən 7 ayrı kriteriya (gəlir, iş, sağlıq, romantik münasibətlər, uşaq, dostlarla münasibət, təhsil)

üzərindən dəğərləndirilmişdir. Hər iki ölkədə də, qeydri heteroseksual fərdlərin yaşam keyfiyyətlərinin heteroseksual fərdlərə nisbətən aşağı olduğu müəyyənləşdirlimişdir(Wooden, 2015).

Seksual orientasiya ilə depressiya arasında birbaşa əlqə yoxdur. Amma şəxsin orientasiyası bəzən təcrdə, qısnamaya, daxili konfliktə, şəxsiyyətlərarası münasibətlərin korlanmasına səbəb ola bilir və bunlar da depressiyanın yaranmasına təkan göstərən faktorlardır (Office of Disease Prevention and Health Promotion, 2016). Baş beyin anatomiyası və canlıların cütləşmə vaxtı etdikləri davranışları təvrübələrlə heyvanlarda öyrənilib. Məsələn, erkək siçanlarda hipotalamusun cinsi aktivliklə bağlı hissəsində daha çox sayda sinir hüceyrəsi var. Həmin sinir hüceyrələrini cərrahi üsulla zədələdikdə, erkək siçan erkəklərə xas cütləşmə davranışını itirir və dişilərə xas davranışlar nümayiş etdirməyə başlayır. Bu fərqliliklərə cinsi dimorfizm deyilir. Həmin sinir hüceyrələri inkişafın başlanğıc mərhələsində hər iki cinsdə də rast gəlinsə də, dişilərdə zaman keçdikcə testosteron azlığından məhv olurlar. Dişi siçana həmin dövrdən etibarən inyeksiya yolu ilə testosteron yeridildikdə qəbuledici dişi davranışı əvəzinə erkək cütləşmə davranışı göstərir. Anatomik fərqliliklərdən əlavə, heyvanlarda eyni dövrə, xarici stimullara cinsiyyətdən asılı olaraq fərqli reaksiya verə bilir. Məsələn, bir çox heyvanlar kimi gəmiricilər də feromonlara qarşı həssasdırlar. Feromonlar heyvanlarda iki fərqli toxuma—burun boşluğunda əsas selikli qişa və köməkçi vomeronazal orqan tərəfindən hiss edilir. Hər iki toxuma heyvanın cinsi aktivliyi üçün lazım olsa da funksiyaları fərqlidir. Feromonun əsas selikli qişaya çatmağı siçanlarda cütləşmə davranışın başladılması üçün, vemoronazal orqan isə partnyoru seçmək üçün vacibdir. Normal selikli qışası, lakin zədələnmiş vemoronasal orqanı olan dişi siçanlar digər dişi siçanlarla cütləşirlər və erkək davranışı sərgiləyirlər. Bu o deməkdir ki, dişi siçanlarda da erkək davranışı üçün lazımi neyral dövrələr var, lakin normalda həmin dövrələr vemoronazal orqandan alınan siqnallar tərəfindən susdurulmuş vəziyyətdə olur. Təcrübi heyvanlardan bu kimi misalların sayını artıra bilərdik, amma bir çox heyvanlarda erkək və dişi beyninlərin müəyyən fərqliliklərə sahib ola biləcəyin oxucu intiuitiv olaraq dərk edir.

İndi isə insan beynində cinsiyyətdən asılı fərqliliklərə nəzər salmağın vaxtı gəlib çatmışdır. Bir çox halda qadın və kişi beyninin önəmli dərəcədə fərqlənmədiyi güman edilsə də, bunun əksini dəstəkləyən sübutlar da mövcuddur (3,4). (Bu arada, kişi və qadın beyni fərqlidir deyəndə qətiyyən hər hansı birinin digərindən daha yaxşı olduğuna işarə etmirəm. Bu fərqliliklərə erkən mərhələdə hormonların, yoxsa böyümə prosesi zamanı fərqli həyat təcrübələrinin səbəb olması isə hələ araşdırılmayıb. Beyində olan dimorfizmlərin hansısa əqli fərqliliklərə gətirib çıxarması da sual altındadır, çünki hər hansı əqli fərqliliyin olmağı özü çox mübahisəli məqamdır. Yüz il əvvəl insanlar heteroseksuallıq haqqında tamamilə fərqli fikirlərə malik idilər.

Bəlkə də "heteroseksuallıq" və "homoseksuallıq" cəmiyyətin uydurduğu sosial bir qavrayışdır və gələcəkdə heç bizə lazım olmayacaq.

BBC müxbiri Brandon Amborsimo-n araşdırması.

**Nəticə**

Bütün bu keçirilən tədqiqatları və nəzəriyyələri bir araya gətirəndə görürük ki qeyri heteroseksual fərdlərin cəmiyyətdə qarşılanma şəkli onlarda bir sıra psixi pozuntulara səbəb ola bilir. Bu isə öz növbəsində şəxsiyyətin inkişafına mane olur. Nəzərə alsaq ki qeyri heteroseksual fərdlər heteroseksual bir dünyaya göz açırlar və onlarda cəmiyyətə adaptasiya problemləri də öz növbəsində şəxsin özünü aktuallaşdırmasına və cəmiyyətlə sağlam əlaqə qurub "Biz" anlayışını mənimsəməklərinə maneə törədir. Sonda bu nəticəyə gələ bilərik ki, şəxsin cinsi oriyentasiyası ilə psixi sağlamlığı arasında bir başa əlaqə olmasa da digər faktorların müşaiətiylə cinsi orientasiya psixi sağlamlığın harmoniyasına təsir edir və şəxsiyyətin formalaşmasında çətinliklərə səbəb olur.

## ƏDƏBİYYAT SİYAHISI

1. Kring, A.M., Davison, G.C, Neale, J.M. & Johnson, S. (2015). Anormal psikolojisi, çev. Mustafa Şahin, 12. bs, Ankara: Nobel Akademi.

3. Bifulco, A., Kwon, J., Jacobs, C., Moran, P.M., Bunn, A., & Beer, N. (2006). Adult attachment style as mediator between childhood neg-

lect/abuse and adult depression and anxiety. Social Psychiatry and Psychiatric Epidemiology, 41, 796- 805

4. Eng, W., Heimberg, R.G., Hart, T.A., Schneier, F.R., & Liebowitz, M.R. (2001). Attachment in individuals with social anxiety disorder: The relationship among adult attachment styles, social anxiety, and depression. Emotion, 1(4), 365-380.

5. Bender, A., & Ingram, R. (2018). Connecting attachment style to resilience: Contributions of self-care and self-efficacy. Personality and Individual Differences, 130, 18-20

6. Bowlby, J., May, D.S., & Solomon, M. (1989). Attachment theory. Los Angeles, CA: Lifespan Learning Institute.

7. Almedia, J.,Johnson,M.R.,Corliss,L,H.,Molnar,E.,B.,Azreal,D. (2008).

8. Emotional Distress Among LGBT Youth: The Influence of Perceived Discrimination Based on Sexual Orientation. J Youth Adolescence, 38(7),1001–1014.

9. Altunpolat, R. (2014). Normalliğin Tahakkümü: Heteronormatif Eğitim Kıskacında LGBTİ'ler. Toplum ve Hekim, 29(4), 314-320.

**Orkhan Shamsi MAJNUNOV**

## THE ROLE OF SEXUAL ORİENTATİON İN PERSONALİTY FORMATİON AND İTS İMPACT ON MENTAL HEALTH

**Abstract**

The article discusses how sexual orientation affects the mental health of homosexual individuals and the difficulty of identity formation. Here, problems related to acceptance by the community and satisfaction of the need for belonging are brought to the fore. These can lead to a decrease in the quality of life, loneliness, social isolation, social fear and in some cases social phobias.

**Keywords**: sexual orientation, homosexuality, mental health, social isolation, anxiety, excitement, self-actualization of personality.

**Орхан Шамси МАЖНУНОВ**

## РОЛЬ СЕКСУАЛЬНОЙ ОРИЕНТАЦИИ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ И ЕЕ ВЛИЯНИЕ НА ПСИХИЧЕСКОЕ ЗДОРОВЬЕ

**Резюме**

В статье обсуждается, как сексуальная ориентация влияет на психологическое здоровье гомосексуальных личностей и сложность оформления их сексуальности. Здесь на первый план выходят проблемы, быть принятым и являться членом общества. Это может привести к снижению качества жизни, одиночеству, социальной изоляции, социальному страху и, в некоторых случаях, социальным фобиям.

**Ключевые слова**: сексуальная ориентация, гомосексуальность, психическое здоровье, социальная изоляция, поощрение, возбуждение.

**Daxil olub:** 02.10.2023